# Vətən müharibəsinin şərəfli salnaməsində bir qəhrəmanlıq zirvəsi

## POLKOVNİK-LEYTENANT RAMİZ CƏFƏROVUN DÖYÜŞ YOLU VƏ TARİXİ MİSSİYASI



**Vətən sevgisi təkcə sözlə ifadə olunan duyğu deyil. O, zərurət anında canla, qanla sübuta yetirilən müqəddəs anddır. Azərbaycan xalqı tarix boyu Vətən torpağını qorumaq üçün saysız-hesabsız qəhrəmanlar yetişdirib. 2020-ci ilin 44 günlük Vətən müharibəsi isə bu qəhrəmanlıq salnaməsinin parlaq səhifələrindən birinə çevrildi. Bu savaş yalnız ərazi bütövlüyünün bərpası deyil, həm də milli ləyaqətin, tarixi ədalətin və xalq iradəsinin təntənəsi idi.**

Vətən müharibəsi Azərbaycan əsgərinin peşəkarlığını, döyüş ruhunu və sarsılmaz iradəsini bütün dünyaya nümayiş etdirdi. Xüsusilə Xüsusi Təyinatlı Qüvvələrin igidləri ən çətin əməliyyatların önündə yer alaraq düşmənə sarsıdıcı zərbələr endirdilər. Həmin igidlərdən biri də polkovnik-leytenant Ramiz Sübhan oğlu Cəfərov idi. O, illər boyu Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmət edərək yüksək peşəkarlığı, prinsipiallığı və qətiyyəti ilə seçilib. Xüsusi Təyinatlı Qüvvələr kimi məsuliyyətli və çətin bir hərbi sahədə xidmət etmək böyük iradə, möhkəm fiziki hazırlıq və sarsılmaz psixoloji dözüm tələb edir. Ramiz Cəfərov məhz bu keyfiyyətləri özündə birləşdirən zabit idi.

44 günlük Vətən müharibəsi başlayanda o, ön cəbhədə, ən təhlükəli istiqamətlərdə döyüş tapşırıqlarını yerinə yetirirdi. Dağlıq və mürəkkəb relyef şəraitində həyata keçirilən əməliyyatlarda xüsusi təyinatlıların rolu həlledici idi. Polkovnik-leytenant Ramiz Cəfərov tabeliyində olan heyəti peşəkarcasına idarə edir, şəxsi nümunəsi ilə əsgərlərə ruh verirdi. Onun rəhbərliyi altında həyata keçirilən əməliyyatlar düşmənin müdafiə xətlərinin yarılmasında mühüm rol oynadı.

Ramiz Cəfərov üçün Vətən anlayışı sadəcə coğrafi məkan deyildi. O, Vətəni müqəddəs əmanət kimi qəbul edir, hər qarış torpağın arxasında bir tarix, bir şəhid ruhu, bir xalqın taleyi olduğunu dərk edirdi. Döyüş meydanında göstərdiyi şücaət, qətiyyət və fədakarlıq onun əsl zabit xarakterini bir daha sübut etdi.

Şəhidlik zirvəsi isə onun həyat yolunun ən ali məqamına çevrildi.O, canını Azərbaycan torpaqlarının azadlığı uğrunda fəda edərək adını qəhrəmanlıq salnaməsinə qızıl hərflərlə yazdırdı. Belə şəhidlər xalqın yaddaşında əbədi yaşayır, gələcək nəsillərə vətənpərvərlik nümunəsi olur.

Ramiz Cəfərovun timsalında biz müasir Azərbaycan zabitinin obrazını görürük: savadlı, peşəkar, intizamlı, Vətənə sonsuz bağlı və xalqına sadiq. Onun həyatı sübut edir ki, əsl qəhrəmanlıq vəzifə borcunu vicdanla yerinə yetirməkdən başlayır və zərurət anında ən ali fədakarlıqla tamamlanır.

Masallı əsilli, "Qartal" ləqəbli Vətən Müharibəsi qəhrəmanı polkovnik-leytenant Ramiz Cəfərov Ukraynanın Donetsk vilayətinin Makeyevka kəndində 1974-cü ildə doğulub. Ailədə 2 qardaş olublar. Azərbaycana köçdükdən sonra Sumqayıtda yaşayıblar. Ramiz 1981-1985-ci illərdə Sumqayıt şəhərindəki 17 nömrəli tam orta məktəbdə təhsil alıb.

Ramiz Cəfərov 1973-cü ildə ulu öndər Heydər Əliyev tərəfindən yaradılan və Azərbaycan Silahlı Qüvvələrinin komplektləşdirilməsi üçün minlərlə milli zabit heyətini yetişdirən C.Naxçıvanski adına hərbi təmayüllü orta məktəbin (1988-1992) məzunu olub. O, fiziki hazırlığı, bilik və bacarığı çox yüksək səviyyədə olan bir zabit idi. Rusiyanın Ryazan şəhərində desant məktəbində, daha sonra isə Bakıda ali hərbi məktəbdə təhsil almasına baxmayaraq, daim öz üzərində çalışan hərbçi kimi yaddaşlarda qalıb.

İgid döyüşçümüz Azərbaycan Silahlı Qüvvələrinin tərkibində müxtəlif vəzifələrdə xidmət edib və hər zaman yüksək nailiyyətlərinə görə mühüm vəzifələrə layiq görülərək komandanlıq tərəfindən yüksək qiymətləndirilib. Rusiya və Türkiyədə keçirilən təlimlərdə iştirak edən peşəkar hərbçimizə ən xas olan xüsusiyyətlər sadəlik və təvazökarlıq idi.

Ramiz Cəfərovun Qardaşı Rafiq Cəfərov qəhrəmanımızla bağlı fikirlərində qeyd edir: "Ramizin uşaq vaxtlarında televizorda 9 May Qələbə günü ərəfəsində nümayiş etdirilən "Burada üfüqlər sakitdir", "Əsgər atası", "Baharın 17 anı", "Mən ki, gözəl deyildim", "Bizim Cəbiş müəllim", "Tütək səsi" və s. bu kimi filmlər, döyüş səhnələri və ya müharibə dövrünün arxa cəbhədəki həyatını əks etdirən kadrlar onun uşaq qəlbində dərin iz buraxıb və onda hərbçi olmaq istəyi yaradıb, hərb sənətinə marağını gündəngünə artırıb.

Bu istəklə də o, 1989-cu ildə 9-cu sinfi bitirib sənədlərini Cəmşid Naxçıvanski adına hərbi liseyə verir və qəbul olur. Orada şəhid general Polad Həşimovla birgə təhsil alır, hərb sənətinin incəliklərini dərindən öyrənirlər. 1992-ci ildə ali hərbi təhsil almaq üçün sənədlərini V.F.Marqelov adına "Suvorov" ordenli Ryazan Qvardiya Ali Hava-Desant Komandanlığı Məktəbinə verir. Sənədlərin qəbulu vaxt boyu kifayət qədər yüksək olmadığından onu imtahanlara buraxmırlar. Lakin Ramizin fiziki hazırlığı o qədər yüksək olur ki, onun boy göstəricisi nəzərə alınmır və məktəbə qəbul edirlər. Təhsil illərində yüksək bilik və bacarıq nümayiş etdirən Ramiz həm təlimlərdə, həm nəzəri dərslərdə fəallığı ilə diqqət çəkir. 1996-cı ildə təhsilini qırmızı diploma başa vuraraq geri qayıdır. Ölkə xaricində təhsil alıb onu müvəffəqiyyətlə başa vurması Azərbaycanda da dəyərləndirilir. Rusiya, Türkiyə, Almaniya və ABŞ-da keçirilən hərbi təlimlərdə mütəmadi iştirak edir. 2004-cü il martın 1-dən 20-nə qədər Amerika Birləşmiş Ştatlarında NATO-nun "Əməliyyat heyəti zabitləri" kursunu müvəffəqiyyətlə tamamlayır. Ömrünün 28 ilini Vətənə xidmətə həsr edən xüsusi təyinatlı polkovnik-leytenant ingilis, alman, rus dillərini də sərbəst bilirdi.

2005-ci ildə Salyan rayonunda xidmətdə olur. 1 il Mudafiə Nazirliyində kəsfiyyat şöbəsində işləyir, sonra yenidən Salyana göndərilir. 2006-2014-cü illərdə Ağstafa rayonu Qırılı kəndində yerləşən "N" saylı hərbi hissənin komandiri olur. 2014-cü ilin may ayında yenidən Sumqayıta qayıdır və təyinatla 2020-ci ilədək Yaşma Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissəsində qərargah rəisinin müavini olur.

46 illik ömrünün 28 ilini həsr etdiyi hərbi xidmət həm də onun qəhrəmanlıq dastanı olur".

2016-cı ildə Aprel döyüşləri adı ilə Azərbaycanın hərb tarixinə düşən 4 günlük müharibədə iştirak edir. Onun bacarıqlı idarəetməsi döyüş yoldaşlarını heyran edir. O, hər addımını, hər hərəkətini dəqiqliklə ölçüb-biçir, sonra qərar verir. Belə olanda uğur əldə etmək şansı böyük olur. Ona görə də döyüşün məkanından və zamanından asılı olmayaraq, Ramizin bütün planları uğurla nəticələnir. O, Aprel döyüşlərində bilik və bacarıq nümayiş etdirməklə qalmır, həm də döyüş təcrübəsi toplayır, strategiya və taktikaya aid təcrübəsini zənginləşdirir. Döyüşlər zamanı Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı kəndi, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar və Suqovuşan kəndlərinin yolları düşməndən azad edilir.

Qüsursuz xidmətlərinə görə dəfələrlə mükafatlara layiq görülür. Döyüş yoldaşları onun haqqında söyləyirdilər ki, o döyüşlərdə hücum vaxtı heç vaxt "İrəli!"- deməzdi, birinci addımı özü atıb, sonra əsgərlərinə "Arxamca!"- deyərdi. Bu qəhrəmanlıqlarına görə ona "Qartal" ləqəbi verməşdilər.

Polkovnik-leytenant Ramiz Cəfərov 2020-ci ilin sentyabr ayında ailəsi ilə görüşür. Tabeliyində olan xüsusi təyinatlı qüvvələrlə ən qaynar döyüşlərin getdiyi nöqtələrə yollanır. 41 gün müddətində bir çox rayonların azad edilməsində iştirak edirlər. Hər rayon azad edildikcə sevinirlər ki, zəhmətimiz yerdə qalmadı, qazandıq. Oktyabrın 30-da sonuncu dəfə ailəsi ilə əlaqə saxlayır. Oğlu Nurlana son sözü: "Az qalıb, oğlum, Şuşa bizimdir. İnşallah, gələcəyəm, birlikdə balıq ovuna gedəcəyik" - olur. Həmin vaxt o Şuşa uğrunda döyüşlərdə iştirak edirdi. Döyüşlər zamanı düşmənin xeyli canlı qüvvəsini və bir çox texnikasını məhv edir. 2020-ci il noyabrın 6-da Şuşada gedən şiddətli döyüşlərdə Ramiz Cəfərovla birlikdə 13 xüsusi təyinatlı da şəhid olur. İgid Vətən oğlu noyabrın 11-də II Fəxri xiyabanda dəfn edilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu Ramiz Sübhan oğlu Cəfərova "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib.

Şəhid polkovnik-leytenantla son dəfə Şuşada görüşən döyüşçünün xatirəsi:

"Mən noyabrın 5-də Şuşaya hücum zamanı yaralandım. Hərbi hissə komandiri Ramiz Cəfərov və onun digər müavini döyüşü idarə edə-edə arxadan gəlirdilər. Onlar bölmələri yoxlayır, nəzarət edirdilər. Mənə də yaxınlaşanda bildirdim ki, ayağımdan açıq qəlpə yarası almışam və olduğum mövqedə gözləyirəm ki, əks-hücum olarsa, atış edim. Komandir mənə baxdı, dedi ki, təxliyyə gələndə aşağı düşərsən. Yaralısan, indi getməsən, iki- üç gün sonra ağırlaşacaqsan, səni kimsə aparmalı olacaq. Noyabrın 6-sı günortadan sonra mən yüksəklikdən aşağı düşməyə başladım. Ermənilər minomyotla oranı səhər saatlarında vurdu, 6 nəfər şəhid oldu. Hava qaraldı, erməni minomyotu həmin dikin üstünü bir də vurdu. Bir qrup döyüşçü oradan bizim yanımıza yeni yaralı, şəhid gətirdilər. Digər qrup isə onları aşağı apardı. Onda eşitdim ki, komandirim Ramiz qardaşım da şəhid olub. Bir neçə saat əvvəl mənimlə danışan adam artıq həyatda yox idi. Çox pis oldum. Söhbət əsnasında demişdi ki, müharibə bitsin, qızıma toy edəcəyəm. Hamınızı dəvət edəcəyəm. Çox böyük arzuları var idi. Şuşaya qalxmaq özü bir qəhrəmanlıqdır. Hər adam ora gedib çıxa bilməzdi. Şuşanı görməyi çox istəyirdi, yaxşı ki, bu, ona qismət oldu.

Dostları ona "Qartal" ləqəbi verməşdilər. Bu ləqəbin verilməsinin öz tarixçəsi vardı. Onlar danışırdılar ki, Ryazanda oxuyanda paraşütlə tullanmağı məşq edirmişlər. Qəflətən səmada Ramizin paraşütünün ipləri dolaşır. Bu mənzərəni seyr edən yoldaşları narahat olurlar. Amma elə həmin vaxt o, özünü itirməyib, elə səmada olanda vəziyyətdən çıxır. O hadisədəki qoçaqlığına görə ona belə ləqəb vermişdilər. Çox məsuliyyətli adam idi. Gecə saat ikidə də çağırış gəlirdisə, gedirdi. Aprel döyüşlərində onun necə çevik olduğunu, çətin anda situasiyadan çıxa bilmək bacarığının dəfələrlə şahidi olmuşdum".

Bu gün azad Qarabağ torpaqlarında dalğalanan üçrəngli bayrağımız Ramiz Cəfərov kimi igidlərin qanı bahasına ucalır. Onların xatirəsi hər bir azərbaycanlının qəlbində müqəddəsdir. Vətən müharibəsi qəhrəmanlarının irsi yalnız keçmişin şanlı səhifəsi deyil, həm də gələcəyin mənəvi dayağıdır.

Polkovnik-leytenant Ramiz Sübhan oğlu Cəfərovun ömür yolu Vətənə sədaqətin, zabit ləyaqətinin və şəhidlik ucalığının simvoludur. Onun adı Azərbaycan tarixində daim ehtiramla çəkiləcək, gələcək nəsillər üçün örnək olaraq yaşayacaqdır.

*Nurанə NƏCƏFOVA*
*Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı-elmi işçisi*